**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

## ATİB sədri "Consulting and Business" jurnalına müsahibə vermişdir

*Ahmet Erentok: "İki ölkə arasında yeni layihələr əsasən kənd təsərrüfatı sahəsində araşdırmalar, toxumçuluq, heyvandarlıq, elmi-aqrar araşdırmalar və digər sahələrə aid ola bilər."*

**No: 09/24/103**
**20.04.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) İdarə Heyətinin sədri Ahmet Erentok "Consulting and Business" jurnalına müsahibə vermişdir.

Ahmet Erentok Azərbaycan-Türkiyə iqtisadi münasibətlərinin səviyyəsindən razılığını ifadə etmiş, bununla yanaşı yeni əlaqələrin qurulmasına ehtiyac olduğunu bildirmişdir: "Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazında dəmir yolu tunelinin inşası, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməklə yanaşı, region ölkələrin tranzit potensialının artmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa Qonşuluq siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafına, regional iqtisadi əlaqələrin genişlənməsinə xidmət edəcəkdir. Qarşılıqlı iqtisadi əlaqələrin mühüm istiqamətlərindən olan rabitə və informasiya texnologiyaları sahəsinin inkişafı çərçivəsində bu sahədə fəaliyyət göstərən birgə müəssisələrdə dövlət payının özəlləşdirilməsi, özəlləşdirməyə açıq elan edilmiş müəssisələrin özəlləşdirməqabağı restrukturizasiya və idarəetmə strukturunun təkmilləşdirilməsi, beynəlxalq standartların tətbiqinin genişləndirilməsi, telefon şəbəkəsinin modernləşdirilməsi çərçivəsində transmissiya şəbəkəsinin tam rəqəmləşdirilməsi və kommunikasiya şəbəkəsinin tam elektronlaşdırılması, TAE optik xəttinin dənizaltı hissəsinin tikintisinin başa çatdırılması, Naxçıvan MR-nin şəhər və rayon mərkəzləri arasında fiber-optik kabellə rabitənin təşkili, dövlət idarəetmə orqanlarının informasiya mübadiləsi şəbəkəsinin yaradılması, radio-televiziya yayımının təkmilləşdirilməsi çərçivəsində ölkə regionlarında rəqəmli televiziya yayımının təşkili, yeni kabel televiziyasının inkişafı, proqramların yayımında peyklərdən səmərəli istifadə edilməsi, Naxçıvan MR-nin radio və televiziya proqramlarının peyk vasitəsilə təşkili kimi tədbirlər önümüzdəki illərdə İKT sektorunun inkişaf prioritetləri kimi nəzərdə tutulmuşdur."

Daha sonra ATİB sədri Türkiyəli iş adamlarının Azərbaycanda üzləşdikləri çətinliklərlə bağlı sualı cavablandırmışdır: "Azərbaycanda görülən tədbirlər nəticəsində sahibkarların

problemlərinin həlli sahəsində mühüm irəliləyişlər əldə edilsə də sahibkarların bir sıra çətinlikləri qalmaqdadır. Bunlara inhisarçılıq, sahibkarların məhkəmə müdafiəsində boşluqların mövcudluğu, biznes informasiya qıtlığı, bazar infrastrukturlarının fəaliyyətinin zəifliyi, peşəkar kadrların çatışmazlığı kimi problemlər aid edilə bilər. Bütövlükdə isə Azərbaycanda Türk firmalarına yaxşı münasibət mövcuddur və bu münasibət dövlətlərarası iqtisadi, siyasi və mədəni əlaqələrin inkişafı ilə şərtlənir."

A.Erentok Türk şirkətlərinin investisiya yerləşdirməsi üçün Azərbaycanın cəlbedici hesab etdiyi iqtisadi sektorları ilə bağlı da fikrini bildirmişdir: "ATİB üzvü olan şirkətlər Azərbaycanın iqtisadi inkişafı üçün strateji əhəmiyyət daşıyan müxtəlif qeyri-neft sektoru sahələrinə iri həcmli investisiyalar yatırmışlar. Önümüzdəki dönəmdə isə turizm, İKT, yeyinti sənayesi, yüngül sənaye və bəzi xidmət sahələrinin xarici investisiyalar üçün daha cəlbedici olacağını düşünürəm. Biz bütün bu istiqamətlərdə hökumətlə də aktiv fikir mübadiləsi aparır və təkliflərimizi mütəmadi olaraq onların nəzərinə çatdırırıq."

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATİB-in İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**